

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 44-45 (7449-7450) • 1933-cü ildən nəşr olunur • Cümə, 6 oktyabr 2017-ci il. • Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**3 oktyabr**

Prezident İlham Əliyev Ukraynanın xarici işlər naziri Pavlo Klimkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə dövlətimizin başçısı Azərbaycan-Ukrayna əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edərək bildirib ki, indi qarşıda duran əsas məsələlərdən biri iki ölkənin imkanlarından istifadə etməklə ticarət dövriyyəsinin artırılmasından, ixrac-idxal əməliyyatlarının genişləndirilməsindən və mümkün investisiya layihələrinin müəyyənləşdirilməsindən ibarətdir.

* * *

Prezident İlham Əliyev Ümumdünya Boks Şurasının Bakıda keçirilən 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul edib.

**2 oktyabr**

Prezident İlham Əliyev Qobustan rayonuna səfərə gəlib.

Dövlət başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Qobustan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Sonra ölkə başçısı Qobustan rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Muğanlı avtomobil magistralının 55-101-ci kilometrlik hissəsini əhatə edən Cəngi-Bədəlli yolunun, Qobustanda yeni tikilmiş 100 yerlik uşaq bağçasının, "Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin və Təklə-Sündü-Xilmilli avtomobil yolunun açılışında iştirak edib.

* * *

Prezident İlham Əliyev Şamaxı rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Şamaxı şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Ölkə başçısı səfər çərçivəsində Çöl Göylər-Padar avtomobil yolunun, Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib, "Az-Granata" MMC-yə məxsus üzüm bağları ilə tanış olub.

**1 oktyabr**

Qadın voleybolçular arasında Avropa çempionatında üçüncü yer uğrunda görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev komandaların oyununa baxıb.

Çempionatın bürünc medalları uğrunda Milli Gimnastika Arenasında Azərbaycan və Türkiyə yığma komandaları qarşılaşıblar.

Türkiyə millisi 3:1 hesabı ilə qələbə qazanıb və Avropa çempionatının bürünc medallarına sahib olub.

**30 sentyabr**

Milli Gimnastika Arenasında keçirilən ilk oyunda Azərbaycan milli komandası finala vəsiqə uğrunda Niderland yığması ilə qarşılaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri komandamızın oyununa baxıblar.

## İLHAM ƏLİYEV: Gələn ilin iqtisadi göstəriciləri daha da yaxşı olacaq

*Prezident möhkəm iqtisadi-maliyyə potensialına malik olan Azərbaycanın tərəqqisinin geniş miqyas alacağını bəyan edib.*

*«Baxmayaraq, neftin qiymətinin kəskin aşağı düşməsinə görə bizim gəlirlərimiz azalıbdır, ancaq sosial və infrastruktur layihələrində heç bir geriləmə yoxdur. Gələn ilin iqtisadi göstəriciləri daha da yaxşı olacaq. Gələn il bu ilə nisbətən daha da böyük həcmdə Dövlət İnvestisiya Proqramı icra ediləcək. Gələn ilin büdcəsi də daha böyük olmalıdır və dövlət investisiya xərcləri daha da böyük olacaqdır. Yəni, iqtisadi, maliyyə sahələrində qarşımızda heç bir problem yoxdur. Azərbaycan möhkəm iqtisadi potensiala malik olan bir ölkədir. Gələcək illərdə bizim iqtisadi gücümüz ancaq artacaq və beləliklə, bütün rayonlarda işlər daha da yaxşı gedəcək».*

## Düşünülmüş, qətiyyətli iqtisadi siyasət



İyirminci əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan tarix üçün qısa, lakin görülən işlərin mahiyyətinə görə böyük və şərəfli bir yol keçmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi siyasət nəticəsində ölkəmizdə dayanıqlı, insanların həyat səviyyəsini ehtiva edən demokratik, dünyəvi dövlətçiliyin Azərbaycan modeli yaradılmışdır.

Bu model Azərbaycanı Avroatlantik məkanda həm mühüm tranzit ölkəyə, həm də nəhəng iqtisadi layihələrin təşəbbüsçüsünə və təşkilatçısına çevirməklə yanaşı, onları bacarıqla reallaşdıran etibarlı tərəfdaş kimi tanınmışdır.

Ölkədə qeyri-neft sektorunun əsas sahələrindən hesab edilən kənd təssərüfatının inkişaf etdirilməsi məqsədilə aqrar sahəyə olan diqqət və qayğının gücləndirilməsi, fermerlərə verilən güzəştli yardımların miqyasının artırılması, o cümlədən vergi azadolmaları, lizinq xidmətlərinin tətbiqi və istehsalçılara subsidiyaların verilməsi aqrar sektorun inkişaf tempinə mühüm stimul verir.

Respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunmasını iqtisadi strategiyanın əsas hədəflərindən biri hesab edən dövlət başçımız tərəfindən kənd təsərrüfatı sahəsində istehsal imkanlarının daha da yaxşılaşdırılması, bununla yanaşı texniki bitkilərin əkininin genişləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Nəqliyyat infrastrukturunun müasir standartlara cavab verməsi və əhalinin tələbatının ödənilməsi ilə bağlı yeni magistral yollar çəkilir, yol kommunikasiyaları əsaslı təmir edilir, yeni körpülər salınır.

Hava nəqliyyatının inkişafında da mühüm addımlar atılmışdır. Heydər Əliyev adına Beynəlxalq Hava Limanı yenidən qurulmuş, Qəbələdə və digər bölgələrdə müasir aeroportlar tikilmiş, əsaslı təmir işləri görülmüşdür.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yenidən qurulması iqtisadiyyatın inkişafına töhfə verən mühüm amillərdən biridir.

Eləcə də müstəqilliyimiz dövründə Azərbaycanda neft-qaz sahəsində həyata keçirilən düşünülmüş strategiya nəticəsində ölkəmiz Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçılarından birinə çevrilmişdir.

Bu gün enerji resursları ilə zəngin olan ölkəmiz regional əməkdaşlıq sahəsində çox mühüm əhəmiyyətə malikdir.

İqtisadiyyatın inkişaf dinamikasını gücləndirmək istiqamətində ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə çox mühüm strateji əhəmiyyət daşıyan dövlət proqramları hazırlanaraq həyata keçirilmişdir.

Uğurla icra olunmuş proqramlar ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət etmişdir.

Regionlarda mövcud potensialdan daha səmərəli istifadə etməklə infrastruktur obyektləri, yeni istehsal və emal müəssisələri yaradılmış, mövcud müəssisələrin istehsal fəaliyyəti genişləndirilmiş, modern rabitə və informasiya texnologiyaları tətbiq edilmiş, o cümlədən müasir standartlara cavab verən təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektləri inşa olunmuşdur.

Şərqlə-Qərbi, Orta Asiya-Qafqaz və Avropanı birləşdirən enerji, nəqliyyat-kommunikasiya və transmilli layihələrin mərkəzinə çevrilən Azərbaycan bu gün dünya dövlətlərinin qarşılıqlı əməkdaşlığının, regional inteqrasiyanın mühüm faktorlarından biri hesab olunur.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası və Prezident İlham Əliyevin düşünülmüş, qətiyyətli siyasəti ölkənin gələcəkdə daha mühüm uğurlara imza atacağına hər birimizdə əminlik yaradır.

**Varis YAQUBOV,**
**"Qəbələ"**